**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№291/6** **"19" oktyabr 2017-ci il**

**Azərbaycan Respublikasının Auditorlar Palatasına**
**Fəxri üzv qəbul edilməsi barədə**

Azərbaycan Respublikasının Auditorlar Palatasına üzvlük haqqında Əsasnaməyə uyğun olaraq, Auditorlar Palatasının məqsəd və vəzifələrinin həllində mühüm töhfəsi olan şəxslər barədə Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsi (S.Gülməmmədov) tərəfindən hazırlanmış təklifləri müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasının məqsəd və vəzifələrinin həllində mühüm töhfəsi olan aşağıdakı şəxslərə Azərbaycan Respublikasının Auditorlar Palatasının Fəxri üzvü statusu verilsin:

- Quliyev Eldar Allahyar oğlu – Azərbaycan Kooperasiya Universitetinin rektoru, millət vəkili.
- Musayev Məmməd Qurban oğlu – Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti.
- Rusiashvili Giorgi – Gürcüstan Mühasiblər, Auditorlar və Məsləhətçilər Birliyinin icraçı direktoru.
- Scekic Rade – Monteneqro Mühasiblər və Auditorlar İnstitutunun icraçı direktoru.

2. Auditorlar Palatasının Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov, Z.Şəhriyarlı-Rzayeva) tapşırılsın ki, 2 (iki) həftə bu qərarın 1-ci bəndi ilə əlaqədar təşkilati işləri həyata keçirsinlər.

3. Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi S.Gülməmmədova tapşırılsın ki, bu qərarın mətni və Fəxri üzvlər barədə informasiyanın (azərbaycan, ingilis və rus dillərində) Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**